# Azərbaycanın ilkin məscid binalarının memarlıq baxımındıfn səciyyəvi xüsusiyyətləri



*Müsəlman ölkələrində, o cümlədən, Azərbaycanda məscid binaları memarlığı inşa edilən bina və qurğular kompleksinin memarlıq-bədii və konstruktiv həllinin formalaşmasını təyin edən bir amildir. Azərbaycanın müxtəlif regionlarında müəyyən vaxt kəsiyində yaranmış məscid binalarının memarlıq xüsusiyyətlərini tədqiq etdikdə bu tipli bina və qurğuların inkişafını və təkmilləşməsini müşahidə etmək olar.*

Azərbaycanda memarlar məscid binaları tikintisində ənənəvi üsullara əsaslanaraq, əvvəllər təşəkkül etmiş həcmi-planlaşdırma və kompozisiya va-riantlarını inkişaf etdirərək və təkmilləşdirərək müsəlman memarlığında öz üslublarını formalaşdırmışdılar (2).

Memarlıq-planlaşdırma baxımından Azərbaycanın ilkin məscidlərindən biri- Şamaxıdakı Böyük Cümə məscidi böyük maraq doğurur. Bu binanın elə bir planı var ki, ona Yaxın Şərq dini tikililərində belə rast gəlmək olmur. Həmin məscidin salonu uzununa tənasübdədir. Tağbənd örtüyü iki cüt dirək üzərinə oturur. Burada bir həcmdə üç ələqəli zal yerləşir, hər zalın da öz mehrabı vardır (6).

İlkin islam məscidlərindən biri Dərbənd Cümə məscididir (XIII ə.). Planına görə bu məscid Bizans bazilikasını xatırladır. Məscidin əsasında və aşağı hissəsindəki daş hörgü sasanid hörgüsünə bənzəyir.

Mərəzə rayonunda IX əsrdə tikilmiş Sündü məscidi də ilkin müsəlman məbədlərindəndir. Konstruk-tiv həllinə görə bu məscidin memarlığında VII əsrdə inşa edilmiş Əl-Əqsa məscidinin təsiri müşahidə olunur.

Müsəlman və eləcədə Azərbaycan memarlığında XII-XIV əsrlərdən başlayaraq məscid binalarının bədii tərtibatı xüsusi rol oynayır. Misal kimi Pirsaat çayı sahilindəki dini kompleks olan Xanəgahın mehrabını, Təbrizin Göy məscidi zinətini, Ərdəbil dini kompleksin-də Şeyx Səfinin xatirə məscidini göstərmək olar.

Öz bədii tərtibatının zənginliyinə və zərifliyinə görə Naxçıvan, Bərdə, Qarabağlar, Təbriz və Bakı məscid və məqbərələri fərqlənir. Yeni islam dininin yayılmasında məscidlərin rolu artdığından, onların məna və həcminə görə təbəqələşməsi başlanır. Bu dövrdə yeni memarlıq formaları meydana gəlir. Məsələn, bu zaman minarələr, iki minarəli portallar yaranır, məscidlərin memarlıq zinət vasitələri dəyişir. Çox vaxt bu dövrün məscidlərinin "selcuq məscidləri" və ya "selcuq köşkləri" adlarına rast gəlmək olur (3).

Vaxt keçdikcə tədricən "köşk" məscidlərindən yeni növ məscidlər - mərkəzi - xaçvari məscidlər yaranır. Geniş yayılmaqda olan məhəllə məscidləri .planda günbəz kompozisiyası alır.

Bakıdakı Məhəmməd məscidinin xüsusiyyəti, onun ya rımsilindr qüllə formalı olan mehrabıdır. Bu mehrabın divar oyuğu divar səthindən irəli çıxır (4).

Bakıdakı Aşur məscidinin (XII ə.) xüsusiyyəti onun günbəzvari stalaktit mehrabıdır ki, bu mehrab divar küncünə batırılıb; İçəri Şəhərdəki Gilək - məscidin (XIV ə.) ibadətgah zalının günbəz altı fəzası bərabər tərəfli xaç formasındadır, xaç isə öz növbəsində künclərində yerləşən kiçik otaqlar vasitəsilə kvadrat şəkli alır; Şıx kəndində, Bibi-Heybət məscidinin tərkibində iki günbəz olmuşdur.

Bəzi hallarda Abşeronun məhəllə məscidləri, məsələn, İçəri Şəhərdəki Molla - Əhməd məscidinin oxvari tağbəndlə örtülmüş prizmatik həcmi ancaq bir ibadətgah zallı olmuşdur.

Abşeron dini abidələrindən biri də Əmirəcandakı köhnə məscid - Nizam-əd-din məscididir (XIV ə.). Bu məscidin binası əhəng daşından tikilmişdir. Həmin binada Azərbaycan memarlığına məxsus elementlər - mürəkkəb stalaktitli mehrab, gözəl tərtib edilmiş portallar, tağlar, tağbəndlər və günbəzlər öz əksini tapmışdır. Onun mərkəz hissəsi 6.05 x 6.20 m ölçüdə olduğundan kvadrata yaxındır. Binanın örtüyü iki tağbəndin (günbəzin) kəsişməsindən yaranır. Onlar dörd tağ üzərində oturur, tağbəndin mərkəzi hissəsində, döşəmədən 4.76 m hündürlükdə pəncərə boşluğu yerləşir.

Vaxt keçdikcə, memarlar məscidlərin bədii tərtibinə lazımi diqqət yetirirlər. Buna misal məscidlərin portal və mehrablarında stalaktitlərdən istifadədir. Giləк məscidin girişinin portalı mürəkkəb xarakterli stalaktit kəmərlə haşiyələnmişdir. Bunu Xıdır məscidi haqqında da demək olar. Bu məscidin giriş və pəncərə boşluqları mürəkkəb profilli haşiyələrlə bəzədilmişdir.

Azərbaycanın XIV əsr memarlığı artan görkəmliliyi, memarlıq-fəza qurluşu və mürəkkəb kon-struktiv həlli ilə xarakterizə olunur.

Bu dövrdə Cümə məscidləri tikintisinə daha çox diqqət yetirilir. Əsasən, az-çox da olsa onların minarələri, planlaşdırılması və xarici görnüşü dəyişikliklərə məruz qalmadan, bu günümüzə qədər qalmışdır. Buna misal Bakıdakı Cümə məscidini göstərmək olar. Onun minarəsi indiyə qədər qalmışdır. Bu minarə planda küncləri kəsilmiş və yarımdairəvi çıxıntısı olan altıvəchli formadadır.

Bu dövrdə şirvan tipli minarələr də geniş inkişaf edir. Birinci dəfə Məhəmməd məscidində istifadə edilən bu elementə, sonralar Pirsaat çayı üzərindəki Xanəgah abidələri kompleksində (XII ə.), Bibi-Heybət məscidində (XIII ə.), Bakı Cümə məscidində və Şirvanşahlar Sarayı kompleksindəki (XV ə.) məsciddə rast gəlmək olur.

Məscidlərin planda xaçvari forması da geniş yayılmışdır. Buna Mərdəkandakı Tuba-Şahi məscidinin binasını (5) tədqiq etdikdə də əmin olunur. Bu binada kompozisiyanın əsası mərkəzi günbəz altı fəza olmuşdur, onun xaçvari planı isə künclərində tikilmiş otaqlar hesabına kvadrat formasına çatdırılmışdır. Bəzi hallarda, Abşeron məscidlərində künc otaqları tikilməmişdir. Bu isə məscid binalarına məqbərə oxşarlığı vermişdir, məsələn Balaxanı kəndindəki məsciddə (XV ə.).

Memarlıq-planlaşdırma həllinə görə günbəzlə örtülmüş ibadət zallı məscidlər geniş yayılmışdır. Bu zallara bitişik köməkçi otaqlar tikilmişdir. Bu üsluba memarlığın şah əsəri sayılan Bakıdakı Saray məscidində (1) rast gəlmək olur. Saray məscidinin günbəz altı fəzası bir qədər irəli çıxan qadın ibadətgahı zalı tikilməklə düzbucaqlı şəklə salınmışdır. Bu məscid binasının inşasında portalın asimmetrik yerləşməsi, memarlıq kütləsinin bədii uyğunluğu, fasad hissələrində planın xüsusiyyətlərinin əksi kimi memarlıq üsullarından istifadə edilmişdir. Məscidin şimal-şərq küncündə qamətli minarə ucaldılmış, iki, azacıq sivri, günbəz isə məscidin prizmatik həcminə özünə məxsus yığcamlıq vermişdir. Bu məscid binasında Abşeronun başqa abidələrinə məxsus olan kompozisiya üsullarından, eləcədə tağ, tağbənd, stalaktit element və formalarından istifadə edilmişdir.

XVI-XVII əsrlər məscid binalarında günbəz həlli ideyası öz inkişafını tapır. Belə məscid binaları üçün kiçik otaqların və çoxlu sayda boşluqların olması, iri ölçülü günbəzlər və dərin portal oyuqları, zəngin tərtibatı olan ornamentli portallar səciyyəvi hal alır. Bütün bu əlamətlər Keşlə kəndindəki məscidlərdə, eləcədə Nardaran kəndindəki Hacı-Baxşı məscidində öz əksini tapır.

Beləliklə, yuxarıda göstərilən məscidlərin təhlili əsasında demək olar ki, tədqiqat dövründə zallı və mərkəzi - günbəzli məscid binaları və yeni tip Azərbaycan minarələri daha geniş yayılmağa başlanmışdır.

**Vəfa Qədimova**

*P.S Məqaləni işləyərkən aşağıdakı ədəbiyyatdan istifadə olunmuşdur:*


1. Ахундов Д.А. Мечеть в комплексе дворца Ширваншахов в Баку. Памятники архитектуры Азербайджана. Баку, 1950.
2. Байрамов Р.М.Типологическая классификация в азербайджанском зодчестве (XI-XVIII в.в.).Автореф. на соиск. учен. степени канд. арх. наук, Баку, 1984.
3. Qiyasi Ç. Nizami dövrü memarlıq abidələri. Bakı, "İşıq", 1999.
4. Рзаев Н. И. Мечеть Мухаммеда, А. А. О.
5. Усейнов М., Бретаницкий Л., Саламзаде А. История архитектуры Азербайджана, Гос.издат.литер. по строит., архит. и строит. матер. М., 1963.
6. Фатуллаев Ш.С. Джума-мечеть в Шемахе. ИАНА, сер. литер., языка и искусства, № 1, 1973.